# Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi haqqında Əsasnaməyə dəyişiklik və əlavə edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

1. Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 27 oktyabr tarixli, 7 nömrəli fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi haqqında Əsasnaməyə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, №10, maddə 615; 2001-ci il, №6, maddə 408; 2002-ci il, №5, maddə 270; 2003-cü il, №10, maddələr 567, 585; 2004-cü il, №8, maddə 617) aşağıdakı dəyişiklik və əlavə edilsin:

1.1. 5.40-cı bənd aşağıdakı redaksiyada verilsin:

*«Gömrük orqanlarının vəzifəli şəxslərinin, gömrük laboratoriyalarının, həmçinin tabeliyindəki digər idarələrin, müəssisələrin, təşkilatların işçilərinin dövlət və sosial müdafiəsini, fiziki hazırlığını təmin edir, onların tibbi təminatını həyata keçirir»:*

1.2. 9-cu bəndin birinci cümləsində *«sədrin müavinlərindən,»* sözlərindən sonra *«Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Aparatının,»* sözləri əlavə edilsin.

2. Bu fərman imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV.***

***Bakı şəhəri, 10 dekabr 2004-cü il.***

***№ 157.***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (11 dekabr 2004-cü il, № 287) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 dekabr 2004-cü il, № 12, maddə 1003) («VneshExpertService» LLC).***

© *VneshExpertService LLC*